**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# RUSİYA İMPERİYASININ ŞİMALİ AZƏRBAYCAN ÜZRƏ AQRAR QANUNVERİCİLİYİ (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

İxtisas: 5503.02 – "Vətən tarixi"
Elm sahəsi: Tarix

İddiaçı: **Kamil Mirnağı oğlu Adıgözəlov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix üzrə elmlər doktoru, professor
**Camal Mehdi oğlu Mustafayev**

**Elmi məsləhətçi:** tarix üzrə fəlsəfə doktoru, professor
**Hacı Nuru oğlu Həsənov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**Fazil Eynulla oğlu Baxşəliyev**

tarix üzrə fəlsəfə doktoru,dosent
**Qorxmaz Xankişi oğlu Mustafayev**

tarix üzrə fəlsəfə doktoru
**Hacı Nəriman oğlu Abdulla**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
________________ **Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Uzun əsrlər boyu bölgədə və dünyada aqrar, kənd təsərrüfatı, təbii sərvətlərlə zəngin olan bir ölkə kimi tanınmış Azərbaycanımızda aqrar münasibətlərin tarixi durumu, bu münasibətlərin təkamülü tarixi, müxtəlif tarixi dönəmlərdə mövcud olmuş aqrar qanunvericilik təcrübəsinin obyektiv şəkildə öyrənilməsi, düşünürük ki, elmimizin qarşısında aktual bir vəzifə kimi dayanmaqdadır.

Azərbaycan tarixinin daha çox tədqiqata ehtiyac duyulan dövrlərindən biri də XIX-XX əsrlərlə bağlıdır. Ümummilli lider Heydər Əliyev 1997-ci ilin yanvar ayının 31-də Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, EA institutlarının direktorları, aparıcı alimləri ilə görüşündə Azərbaycanın XIX-XX əsrlər tarixinə yenidən baxılmasını, "bu dövr tarixinin obyektiv yazılmasını" tarixçilər qarşısında mühüm bir vəzifə kimi qoymuşdur.[1]

XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda həyata keçirilmiş aqrar islahatlar Rusiya imperiyasının burada yürütdüyü müstəmləkə siyasətinin tərkib hissələrindən birini, əsasını təşkil edirdi. Buna görə də həmin islahatlarla, aqrar sahədə yürüdülmüş rəsmi qanunvericilik siyasətinin xüsusiyyətləri ilə bağlı olan elmi tədqiqat mövzusunun hərtərəfli araşdırılması indi də çox aktualdır.

Dissertasiyanın aktuallığını şərtləndirən ən başlıca cəhətlərdən biri də onun məhz tarixi faktlara, arxiv sənədlərinə, dövri mətbuat materiallarına, statistik göstəricilərə əsaslanmasıdır.

Azərbaycan sovet tarix elmində, habelə keçmiş SSRİ tarix elmində bəhs olunan mövzu ümumilikdə Şimali Azərbaycan tarixinin tərkib hissəsi kimi öyrənilmiş və "Rusiya imperiyasının Şimali Azərbaycan üzrə aqrar qanunvericiliyi (XIX-XX əsrin əvvəlləri)" mövzusu heç vaxt ayrıca, xüsusilə tədqiqatın obyekti olmamışdır.

Çar məmurlarının qələmindən çıxmış əsərlərin yazılış tərzi mahiyyət etibarilə "zadəgan-burjua" adlandırılan tarixçilərinin

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 8. – 2006, – s. 216.

əsərlərindən heç nə ilə fərqlənməsə də həmin əsərlər bizə çox əhəmiyyətli məlumatlar verə bilir. Misal olaraq M.N.Kuçayevin[2], N.N.Şavrovun[3], XIX əsrin tanınmış hərb tarixçilərindən hesab olunan N.F.Dubrovinin əsərlərini göstərmək olar.[4] XIX-XX əsrin əvvəllərində nəşr olunmuş tədqiqatlardan İ.L.Seqalın,[5] S.A.Yegiazarovun,[6] X.A.Vermişevin,[7] V.N.İvanenkonun,[8] S.L.Avalianinin,[9] B.S.Yesadzenin,[10] Q.Q.Yevanqulovun,[11]

---

[2] Кучаев, М.Н. Отчет по ревизии административных учреждений в Елисаветпольской губернии / М.Н Кучаев. – Тифлис: – 1885; Кучаев, М.Н. Поземельный вопрос в Каспийской области // – Москва: Русский вестник, – 1893, кн. 6, – с. 155-202; Кучаев, М.Н. Пути земледельчества в Закавказье // Русский вестник, – 1892, кн. 12, – с. 215-228; Кучаев, М.Н. Феодализм и закрепощение в Закавказском крае // Русский вестник, – 1892, кн. 1.

[3] Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам / Н.Н.Шавров. – Баку: Элм, – 1990. – 156 с.

[4] Дубровин, Н.Ф. Закавказье от 1803-1806 года / Н.Ф.Дубровин. – Санкт-Петербург: Тип. департамента уделов, – 1866. – 542 с.

[5] Сегаль, И.Л. Крестьянское землевладение в Закавказье / И.Л.Сегаль. – Тифлис: – 1912. – 154 с.

[6] Егиазаров, С.А. Исследование по истории учреждений в Закавказье: [в 2 частях]. Сельская община / С.А.Егиазаров. – Казань: типография Императорского университета, – Ч.1, – 1889. – 352 с. və b.

[7] Вермишев, Х.А. Земледелие у государственных крестьян Закавказского края / Х.А.Вермишев. – Тифлис: – 1888. – 564 с.

[8] Иваненко, В.Н. Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества великого князя Михаила Николаевича / В.Н.Иваненко – Тифлис: Типография Лорис-Меликова, – 1901. – 525 с.

[9] Авалиани, С.Л. Крестьянский вопрос в Закавказье: [в 4-х частях] / С.Л.Авалиани. – Одесса: Типография техник, – Ч. 3. – 1914. – 180 с.; Авалиани, С.Л. Крестьянский вопрос в Закавказье: [в 4-х частях] / С.Л.Авалиани. – Тифлис: Издание Тифлисского Государственного Университета, – Часть 4. – 1920. – 232 с.

[10] Историческая записка об управлении Кавказом: [в 2 томах] / – Тифлис: Типография «Гуттенберг», – Том 1. – 1907. – 616 с.; Историческая записка об управлении Кавказом: [в 2 томах] / – Тифлис: Типография «Гуттенберг», – Том 2. – 1907. – 556 с.

[11] Евангулов, Г.Г. Местная реформа на Кавказе: [статьи] / Г.Г.Евангулов. – Санкт-Петербург: Тип. т-ва А.В.Суворина "Новое Время", – 1914. – 67 с..

Q.M.Tumanovun, [12] O.Syominin, [13] B.M.Qorodetskinin [14] və digərlərinin əsərlərində mövcud dissertasiya üçün seçilmiş tədqiqat mövzusu ilə bağlı xeyli materiallar və faktlar əldə etmək mümkündür.

Azərbaycan sovet tarixşünaslığında aqrar münasibətlər tarixinin öyrənilməsi istiqamətində ilk dəfə təşəbbüs göstərənlərdən biri M.H.Vəliyev (Baharlı) olmuşdur.[15] Daha sonra bu işi Y.A.Paxomov davam etdirmişdi. Onun Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti "Xəbərləri"nin birində çap etdirdiyi məruzəsində[16] çarizmin Cənubi Qafqazdakı aqrar qanunlarına münasibət bildirilir. Ə.S.Qubaydullin də Şimali Azərbaycanda sosial-iqtisadi münasibətləri tədqiq edən müəlliflərdən biri olmuşdur.[17]

Zaqatala bölgəsinin XIX əsrin birinci yarısı haqqında tədqiqat aparmış Y.Ələsgərov [18] bu bölgənin aqrar münasibətləri və bu münasibətlərin Şimali Azərbaycanın oraya yaxın bölgələrindəki aqrar münasibətlərindən fərqliliyi haqqında qiymətli məlumat vermişdir.

Azərbaycanın aqrar tarixinin bəzi məsələləri N.Q.Boqdanovanın

---

[12] Туманов, Г. Земельные вопросы и преступность на Кавказе / Г.Туманов. – Санкт-Петербург: Типография П.П.Сойкина, – 1900. – 109 с.; Туманов, Г. К введению на Кавказе земского самоуправления / Г.Туманов. – Тифлис: Электропечатня Типографского товарищества «Гермес», – 1905. – 80 с.

[13] Сёмин, О. Великая годовщина: Аграрный вопрос и крестьянская реформа на Кавказе / О.Сёмин. – Киев: Издательство «Вся Россия», – 1911. – 166 с.

[14] Городецкий, Б.М. Правовые и поземельные отношения землевладельцев и крестьян в Закавказье // – Екатеринодар: На Кавказе (ежемесячный журнал). Типография Товарищества «Печатник», – 1909, т. 1, №2, – с.150-176.

[15] Vəliyev, M.H. Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk) / M.H.Vəliyev. – Bakı: Azərnəşr, – 1993. – 192 s.

[16] Пахомов, Е.А. О сословно-поземельном вопросе в Азербайджане // – Баку: Известия общества обследования и изучения Азербайджана. – №1, – 1925, – с. 16-23.

[17] Губайдуллин, А.С. Феодальные классы и крестьянства в Азербайджане (XIX век) // – Баку: Известия восточного факультета АГУ, – 1928. №3, – с. 15-36.

[18] Алескеров, Ю. Закатальский округ в первой половине XIX в. и восстание 1863 года: / диссертация доктора философии по истории) / – Баку, 1950.

irihəcmli məqalələrində daha geniş şəkildə təhlil edilmişdir.[19]

Ə.N.Quliyev və V.D.Moçalovun redaktəsi ilə "Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri" [20] adlı kitabı, V.D.Moçalovun və A.S.Sumbatzadənin 1958-ci ildə çapdan çıxmış irihəcmli monoqrafiyaları[21] o zamankı Azərbaycan tarixşünaslığında çox böyük elmi hadisə sayıla bilər.

Ə.S.Sumbatzadənin monoqrafiyasında Şimali Azərbaycanın kənd təsərrüfatının, demək olar ki, bütün sahələrinə nəzər yetirilmişdir.[22]

Şimali Azərbaycanın aqrar tarixini tədqiq edən ən məhsuldar müəlliflərdən biri də AMEA-nın müxbir üzvü mərhum M.Ə.İsmayılov olmuşdur. Onun çoxsaylı monoqrafiyalarında bəhs olunan dövrün kənd təsərrüfatı ilə bağlı bütün məsələlərinə toxunması bu sahədəki bir sıra boşluqları aradan qaldırmışdır.[23] XX əsrin əvvəllərində Azərbaycan kəndinin sosial quruluşunun

---

[19] Богданова, Н.Г. Аграрные отношения в Азербайджане в 1870-1917 гг. // Исторические записки, – №12. 1941, – с. 200-227; Богданова, Н.Г. К вопросу о феодальной эксплуатации кочевников в Закавказском крае в первой трети XIX в. // – Москва-Ленинград: Исторический архив, – т. II. 1939, – с. 221-238.

[20] Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры (XIX – начале XX вв.). – Баку: Изд. АН Азербайджанской ССР, – 1955. – 295 с.

[21] Мочалов, В.Д. Крестьянское хозяйство Закавказье к концу XIX в. / В.Д.Мочалов. – Москва: Издательство АН СССР, – 1958. – 492 с.; Сумбатзаде, А.С. Сельское хозяйство Азербайджана в XIX в. / А.С.Сумбатзаде. – Баку: Изд-во АН Азербайджанской ССР, – 1958. – 346 с.

[22] Сумбатзаде, А.С. К вопросу об оценке исторического значения законодательного акта от 14 мая 1870 г. о так называемой «аграрной реформе» в Азербайджане, Армении и части Грузии // Вопросы истории сельского хозяйства, крестьянства и революционного движения в России. – Москва: Изд-во АН СССР, – 1961, – с. 231-240.

[23] İsmayılov, M.Ə. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda torpaq mülkiyyəti və torpaqdan istifadə formaları haqqında // – Bakı: Azərbaycan SSR EA Tarix İnstitutunun əsərləri, – 1958. Cild 13, – s. 177-200; İsmayılov, M.Ə. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın üzümçülük və şərabçılıq təsərrüfatlarında kapitalist münasibətlərinin inkişafı məsələlərinə dair // – Bakı: Azərbaycan SSR EA-nın Xəbərləri, – 1956. №3, – s. 91-107; İsmayılov, M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı / M.Ə.İsmayılov. – Bakı: Azərbaycan SSR EA nəşriyyatı, – 1960. – 240 s. və b.

öyrənilməsində M.Ə.İsmayılovun "İmperializm dövründə Azərbaycanın sosial-iqtisadi quruluşu" [24] monoqrafiyasının da əhəmiyyəti misilsizdir.

Azərbaycan sovet tarixşünaslığında XIX əsr aqrar münasibətlərinin tədqiqi sahəsində H.Ə.Dadaşovun irihəcmli məqaləsi də diqqəti cəlb edir.[25]

Azərbaycan sovet tarixşünaslığında su sahibliyi və sudan istifadə məsələsi ən az öyrənilən məsələlərdən olmuşdur. İ.A.Talıbzadənin monoqrafiyası[26] Azərbaycan sovet tarixşünaslığında bu istiqamətdə atılmış ilk ciddi addım hesab edilməlidir. Onun digər əsərində əsasən 1912-ci il 20 dekabr qanunundan bəhs olunur.[27]

XX əsrin əvvəllərində aqrar münasibətləri tarixini tədqiq edən müəlliflərdən biri də tanınmış tədqiqatçı C.X.Hüseynov olmuşdur. Onun namizədlik dissertasiyasında[28] və monoqrafiyasında[29] çarizmin aqrar siyasətinə obyektiv qiymət verilmişdir.

Bunlardan əlavə, Ə.A.Umayevin, [30] K.K.Şükürovun, [31]

---

[24] Исмаилов, М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма / М.А.Исмаилов. – Баку: Элм, – 1982. – 165 с.

[25] Дадашев, Г.А. О феодально-крепостнических остатках в дореволюционном Азербайджане // – Баку: Труды Азербайджанского филиала ИМЛ при ЦК КПСС, – 1957. Т. XX, – с. 119-151.

[26] Talıbzadə, İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə / İ.A.Talıbzadə. – Bakı: Elm, – 1980. – 150 s.

[27] Talıbzadə, İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatı / İ.A.Talıbzadə. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, – 1965. – 111 s.

[28] Гусейнов, Д.Х. Положение и классовая борьба крестьян Азербайджана в период первой мировой войны (июль 1914 – февраль 1917 гг.): / автореферат диссертации доктора философии по истории) / – Баку, 1967. – 30 с.

[29] Гусейнов, Д.Х. Национально-освободительное движение в Азербайджане в начале XX в. (1900-1907 гг.) / Д.Х.Гусейнов. – Баку: (б.и.), – 2001. – 256 с.

[30] Умаев, А.А. Проникновение капитала в сельское хозяйство Азербайджана (1883-1914 гг.): / автореферат диссертации доктора философии по истории) / – Баку, 1965. – 34 с.; Умаев, А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX в. (1870-1914 гг.): / автореферат диссертации доктора исторических наук) / – Баку, 1987. – 45 с.; Умаев, А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX века / А.Умаев. – Баку: Элм, – 2002. – 530 с.

Z.A.Şahverdiyevin, [32] M.M.Gülmalıyevin [33] və digərlərinin tədqiqatları da böyük elmi dəyər daşımışdır.

Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda çar Rusiyasının aqrar qanunvericiliyi məsələlərinə bir sıra sovet, gürcü[34] və erməni[35] tarixçilərinin əsərlərində toxunulmuşdur.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizin aqrar tarixinin tədqiq olunmasında da ciddi irəliləyiş nəzərə çarpmağa başladı. Belə ki, indiyə kimi tarix elminə bu sahədə A.Q.İsgəndərovun [36] tədqiqatı, M.K.Abdullayevin [37] və H.N.Həsənovun [38] monoqrafiyaları, F.E.Baxşəliyevin [39] çoxsaylı

---

[31] Шукюров, К.К. Отходничество в Закавказье из Южного Азербайджана (вторая треть XIX в. – 1905 г.): / автореферат диссертации доктора философии по истории) / – Баку, 1984. – 26 с.

[32] Шахвердиев, З.А. Аграрное отношение и положение крестьян Азербайджана 70-90-х годов XIX в.: / автореферат диссертации доктора философии по истории) / – Баку, 1984. – 26 с.

[33] Gülmalıyev, M.M. XVIII əsrin son rübü – XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-siyasi strukturu / M.M.Gülmalıyev. – Bakı: Elm, – 1989. – 280 s.; Гюлмалиев, М.М. Крестьянское движение в Азербайджане в последней четверти XIX в.: / автореферат диссертации доктора философии по истории) / – Баку, 1984. – 26 с.

[34] Антелава, И.Г. Государственные крестьяне Грузии в XIX веке. До крестьянской реформы 1864 г. / И.Г.Антелава. – Тбилиси: Сабчота Сакартвело, – Т.1. – 1969. – 483 с.; Жордания, С. К. История крестьянской реформы в Грузии. Тбилиси: – 1982. Т. 1. – Подготовка крестьянской реформы в Восточной Грузии; Мирцхулава, И.И. Аграрно-крестьянский вопрос в Грузии в 1900-1921 гг. / И.И.Мирцхулава. – Тбилиси: Изд-во Мецниереба, – 1978. – 362 с.və s.

[35] Рштуни, В. Крестьянская реформа в Армении // – Ереван: Известия АН Арм. ССР, – 1944, №5, – с. 45-66; Еганян, М.Н. Аграрные отношения в Армении до и после ее присоединения к России: / автореферат диссертации доктора философии экономических наук. – Ереван, 1967. – 44 с. və s.

[36] Искендаров, А.Г. Социально-экономическое положение Северного Азербайджана в период Российских завоеваний (первая треть XIX в): / автореферат диссертации доктора философии по истории) / – Баку, 1992. –34 с.

[37] Abdullayev, M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər) / M.Abdullayev. – Bakı: Adiloğlu, – 2005. – 234 s.

[38] Гасанов, Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. / Г.Н.Гасанов. – Баку: Тахсил, – 2007. – 224 с.

sanballı məqalələri aqrar tarixin öyrənilməsində müəyyən irəliləyişlərin baş verdiyinə əmin olmağa inam yaradır.

Azərbaycan tarixşünaslığında XIX əsr və XX ərin əvvəllərində aqrar münasibətlər tarixinin ümumiləşdirilmiş şəkildə geniş ictimaiyyətə çatdırılmasında üçcildlik "Azərbaycan tarixi"nin ikinci,[40] yeddicildlik "Azərbaycan tarixi"nin dördüncü[41] və beşinci[42] cildləri, keçən əsrin 90-cı illərində nəşr olunmuş müxtəlif "Azərbaycan tarixləri"[43] və digər kitablar müəyyən rol oynamışdır.[44]

Tədqiqatın mənbə bazasını ilk növbədə Rusiya imperiyası qanunlarının tam toplusu təşkil edir. Dissertasiyanın yazılmasında bu məcmuənin birinci, ikinci və üçüncü buraxılış-nəşrlərinin demək olar ki, hamısından istifadə olunmuşdur. Bu nəşrlərdən 86-a qədər müxtəlif qanunlar tədqiqatda yer almışdır.

Mövzu ilə bağlı istifadə edilmiş mənbələrin xeyli hissəsini Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA) 13 saylı "Əkinçilik nazirliyinin Qafqazdakı müvəkkili", 21 saylı "Qafqazın su idarəsi", 22 saylı "Bakı quberniyası və Dağıstan vilayəti Əkinçilik və Dövlət əmlak idarəsi", 24 saylı "Ali gürcü hökumətinin xəzinə ekspedisiyası", 51 saylı "Bakı quberniyasının kəndli işləri üzrə idarəsi", 54 saylı "Əhalinin yerləşdiyi torpaqlara və töycü məsələlərinə nəzarət edən Bakı quberniyası və Dağıstan vilayəti

---

39 Baxşəliyev, F.E. Şimali Azərbaycanda 1870-ci il kəndli islahatından sonra torpaq sahibliyi və torpağın icarə edilməsi haqqında // – Bakı: Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası. – 2010, №2, – s. 108-113; Бахшалиев, Ф.Э. Аграрная политика Российской империи в Закавказье в конце XIX – начале XX века // – Баку: Кавказ и глобализация, – 2013. Том 7. Выпуск 3-4, – с. 183-192 və b.

40 Azərbaycan tarixi: [3 clilddə]. – Bakı: Azərbaycan SSR EA nəşriyyatı, – II cild, – 1964. – 956 s.

41 Azərbaycan tarixi: [7 cilddə]. – Bakı: Elm, – IV cild (XIX əsr), – 2000. – 508 s.

42 Yenə orada, – V cild (1900-1920-ci illər), – 2001. – 672 s.

43 Azərbaycan tarixi (ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər). – Bakı: Elm, – 1993. – 284 s.; Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – I cild, – 1994. – 688 s.; Azərbaycan tarixi (Uzaq keçmişdən 1970-ci illərə qədər). – Bakı: Azərbaycan, – 1996. – 872 s.

44 Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu: [2 hissədə]. – Bakı: Bakı Universiteti nəşriyyatı, – II hissə (XIX-XXI əsrin əvvəli). – 2010. – 545 s.

əkinçilik və dövlət əmlakı idarəsinin xüsusi təyinatlı məmuru”, 55 saylı “Bakı bəy komissiyası”, 64 saylı “Yelisavetpol quberniyasının kəndli işləri üzrə idarəsi”, 75 saylı “Quba komendantının idarəsi”, 130 saylı “Cənubi Qafqaz müsəlman əyalətlərinin hərbi-dairə rəisinin dəftərxanası”, 429 saylı “Qafqazdakı 3-cü su sahəsinin hidravlik mühəndisi” fondlarından aşkara çıxarılmış sənədlər və materiallar təşkil edir.

Qaynaqların ikinci ən böyük qrupuna nəşr olunmuş qaynaqları aid etmək olar. Məşhur “Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktlar”ı bu baxımdan xüsusi yer tutur.

Arxiv materialları əsasında hazırlanan kitablar da mənbə xarakterli sayıla bilər.[45] “XIX əsrin 20-60-cı illərində Azərbaycanda rus çarizminin müstəmləkəçilik siyasəti” adlı kitablardan [46] dissertasiya ilə bağlı olan xeyli məlumat toplanmışdır.

Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq münasibətlərini tənzimləyən pərakəndə qanunlar “Материалы для изучения экономического быта государственных крестьян Закавказского края” adlanan 7 cildlik, “Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского

---

[45] Антелава, И.Г. Реформа поземельного устройства государственных крестьян Закавказья в конце XIX в. (Сб. документов) / И.Г.Антелава. – Сухуми: Госиздат Абхазской ССР, – 1952. – 296 с.; О русской политике в Закавказье. – Баку: Правительственная типография газеты «Азербайджан», – 1920. – 235 с.; Документы и материалы по внешней политике Закавказья и Грузии. – Тифлис: Типография Правительства Грузинской Республики, – 1919. – 514 с.; Сельское хозяйство и аграрные отношения: [в 4 томах] / Составил проф. П.В.Гугушвили. – Тбилиси: Издательство АН Груз.ССР, – Том второй. – 1950. – 728 с.; Сельское хозяйство и аграрные отношения: [в 4 томах] / Составил проф. П.В.Гугушвили. – Тбилиси: Издательство АН Груз.ССР, – Том четвертый. – 1955. – 876 с.; Из истории аграрной политики царизма в Грузии, Азербайджане и Армении. – Архивные материалы. – Ереван: – 1954 və b.

[46] Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в.: [в 2 частях] – Москва-Ленинград: Издательство АН СССР, – Ч. 1. – 1936. – 463 с.; Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в.: [в 2 частях] – Москва-Ленинград: Издательство АН СССР, – Ч. 2. – 1937. – 480 с..

края" adlanan 5 cildlik və "Материалы для устройства казенных летних и зимних пастбищ и для изучения скотоводство на Кавказе" adlanan 4 cildlik əsərlərdə sistemləşdirilərək nəşr olundu.

Mövzuya aid edilən mənbələr sırasına Qafqazda yüksək vəzifələri icra etmiş çar məmurlarının hesabatları,[47] xatirə[48] və qeydlərini də[49] əlavə etmək olar. Müxtəlif illərdə Bakı və Yelisavetpol qubernatorlarının hesabatlarına əlavələr olaraq nəşr olunmuş "İcmallar"[50] və İrəvan quberniyasının yaddaş kitabları[51] həmin quberniyalarda çarizmin aqrar siyasətini izləmək baxımından əhəmiyyətlidir.

**Tədqiqatın obyekti və predmeti.** Mövcud dissertasiya işində tədqiqatın başlıca obyekti XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda ağır müstəmləkə rejimi quraraq buranı romanovlar imperiyasının xammal bazasına və geniş imkanlı satış bazarına çevirməyi özünün başlıca məqsədi sayan çar mütləqiyyətinin bu diyar üzrə tətbiq etdiyi və ya etməyə çalışdığı aqrar qanunvericiliyi təşkil edir.

---

[47] Николаи, А.П. Отчет по Главному управлению наместника Кавказского за первое 10-летие управления Кавказским и Закавказским краем князем Михаилом Николаевичем 6 декабря 1862 г. – 6 декабря 1872 г. – Тифлис: Типография главного управления наместника Кавказского, – 1873. – 442 с.; Всеподданнейший отчет Наместника Кавказского по Гражданскому Управлению Кавказским и Закавказским краем 1863-1871. – Тифлис: [Б.и.], – 1873. – 43 с. və b.

[48] Воспоминания барона А.П. Николаи. Раскрепощенье в Закавказском крае // Русский архив, – 1892. №28, – с. 91-125.

[49] Корф, М.А. Записки / М.А.Корф. – Москва: Захаров, – 2003. – 720 с.

[50] Обзор Бакинской губернии за 1889 год. – Тифлис: [б. и.], – 1895. – 30 с.; Обзор Бакинской губернии за 1893 год. – Баку: [б. и.], – 1894. – 47 с. [34] с. və b. Обзор Елисаветпольской губернии за 1892 год. – Тифлис: Типография Е.И. Хасадзе, – 1893. – 33 с.; Обзор Елисаветпольской губернии за 1897 год. – Издание Елисаветпольского губернского статистического комитета, – 1898. – 29 с.; Обзор Елисаветпольской губернии за 1910 год. Издание Елисаветпольского губернского статистического комитета. - Тифлис: - 1912. - 345 с.: табл. və b.

[51] Памятная книжка Эриванской губернии на 1906 год. – Эривань: Типография П.Ованесяна и К°, – 1905. – 396 с.; Памятная книжка Эриванской губернии на 1912 год. – Эривань: Тип. Губернского правления, – 1912. – 783 с.

XIX-XX əsrin əvvəllərində iqtisadiyyatın başlıca hissəsini aqrar sahə təşkil edən Şimali Azərbaycanda romanovlar mütləqiyyətinin tətbiq etdiyi ayrı-ayrı qanunlar, təlimatlar, habelə müxtəlif digər hüquqi aktlar mövcud tədqiqatda aparılan araşdırmaların başlıca predmeti rolunu oynamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın başlıca elmi məqsədi XIX-XX əsrin əvvəllərində çar Rusiyasının Şimali Azərbaycan üzrə aqrar qanunvericiliyinin kompleks şəkildə öyrənilməsinə nail olmaqdır. Bu məqsəddən çıxış edərək, tədqiqatda aşağıdakı konkret elmi vəzifələrin həllinə cəhd göstərilmişdir:

– İşğal dövründə aqrar münasibətlərin hüquqi cəhətdən nizamlanması istiqamətində çarizmin gördüyü tədbirlərin mahiyyətini və məqsədlərini açıb göstərmək;

– XIX əsrin 30-cu illərində çarizmin aqrar qanunların hazırlanmasına xüsusi maraq göstərdiyini diqqətə çatdırmaq, bu qanunların məğzini işıqlandırmaq;

– XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda tətbiq edilmiş Rusiya aqrar qanunvericiliyini təhlil etmək;

– XIX əsrin 50-60-cı illərində çar hökuməti tərəfindən aqrar qanunlara edilən əlavələri nəzərdən keçirmək və bu dəyişikliklərdən irəli gələn məsələləri şərh etmək;

– 1870-ci il 14 may tarixli kəndli əsasnaməsinin hazırlanması, onun məzmunu və həyata keçirilməsini dəyərləndirmək;

– XIX əsrin 80-90-cı illərinin aqrar qanunvericiliyinin başlıca mahiyyəti və xüsusiyyətlərini açıb göstərmək;

–1900-1904-cü illərin aqrar qanunlarının özünəməxsusluğu və bu qanunların aqrar sahəyə gətirdiyi yenilikləri təhlil etmək;

– Müvəqqəti mükəlləfiyyətlərin və asılılıq münasibətlərinin ləğv edilməsi haqqında aqrar qanunların hazırlanması, bu qanunların mahiyyəti və onların nəticələrini tədqiq edib qiymətləndirmək;

– XIX-XX əsrin əvvəllərində verilmiş aqrar islahatların hazırlanması zamanı rəhbər tutulan prinsipləri aramaq və onlara obyektiv qiymət vermək;

–Cənubi Qafqazda tətbiq edilmiş rəsmi aqrar siyasətin mahiyyətinin çarizmin mənafelərinə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirmək;

– Tədqiq olunan dövrdə Cənubi Qafqazdakı aqrar qanunvericilik sisteminin fəaliyyətinin başlıca yekunlarını qiymətləndirmək.

**Tədqiqatın metodları.** Dissertasiyanın yazılmasında elmi həqiqəti müəyyən etməyin başlıca metodları hesab olunan sistemli təhlil metodu, struktur təhlil metodu, müqayisəli təhlil metodu, obyektiv tədqiqat metodu və onun tarixilik prinsipləri əsas götürülmüşdür. Həmçinin dünya tarixşünaslığında mövcud olan elmi-nəzəri müddəalardan da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Mövcud dissertasiyada aşağıdakı əsas elmi müddəaların əsaslandırılmış şəkildə müdafiəyə çıxarılmasına cəhd göstərilir:

- Romanovlar Rusiyasının XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda tətbiq etməyə çalışdığı aqrar qanunvericilik uzun və ziddiyyətli təkamül yolu keçmişdir;
- burada tətbiq edilən aqrar qanunvericiliyin başlıca məqsədi bu ölkənin aqrar həyatını büsbütün imperiya mərkəzinin nəzarəti altına qoymaq məqsədinə xidmət edirdi;
- Şimali Azərbaycanda tətbiq edilmiş Rusiya aqrar qanunvericiliyinin başlıca məqsədlərindən biri bu ölkədən Rusiya imperiya xəzinəsinə mümkün qədər çox gəlirin daxil olmasını təmin etmək idi;
- Şimali Azərbaycandakı Rusiya aqrar qanunvericiliyi, bir qayda olaraq, yerli özəllikləri nəzərə almırdı;
- imperiya orqanlarının aqrar qanuni aktları çox ləng hazırlanır və çox ləng həyata keçirilirdi;
- bu qanunvericilik öz qarşısında duran vəzifələri bütövlükdə həll edə və Şimali Azərbaycanın aqrar həyatını imperiya dairələrinin istək və arzularına müvafiq şəkildə yenidən qura bilmədi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycan milli tarixşünaslığında ilk dəfədir ki, XIX-XX əsrin əvvəllərində Rusiya imperiyasının Şimali Azərbaycan üzrə aqrar qanunvericiliyi məxsusi olaraq və kompleks şəkildə tədqiqinə cəhd göstərilmişdir. Yeni arxiv sənədlərinin və müxtəlif mənbə xarakterli materialların üzə çıxarılmışdır. İşin elmi yeniliyi həm də ondan ibarətdir ki, burada ilk dəfə olaraq aşağıdakı elmi məsələlərin həllinə nail olunmuşdur:

– Azərbaycan milli tarixşünaslığında ilk dəfə olaraq XIX-XX əsrin əvvəllərində Rusiya imperiyasının Şimali Azərbaycan üzrə aqrar qanunvericiliyi kompleks şəkildə tədqiqata cəlb olunmuşdur;
– XIX-XX əsrin əvvəllərində Rusiya imperiyasının Şimali Azərbaycanda tətbiq etdiyi aqrar qanunlar ardıcıllıqla dövrləşdirilmiş, hər bir dövr üzrə edilən dəyişikliklər sistemləşdirilmişdir;
– XIX əsrin birinci yarısında Şimali Azərbaycan üzrə aqrar qanunvericilik sahəsində çarizmin sınaq xarakterli ilkin təşəbbüslərinin məqsədləri müəyyənləşdirilmiş və onların mahiyyəti qiymətləndirilmişdir;
– XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda çarizmin aqrar siyasətindəki dəyişikliklərinə və bu qanunların xarakterinə obyektiv qiymət verilmişdir.
– XX əsrin əvvəllərində Şimali Azərbaycanda həyata keçirilmiş müstəmləkəçi aqrar islahatların məğzi, məqsədləri və nəticələri geniş qaynaq materialları əsasında dəyərləndirilmişdir;
– Rusiya imperiyasının Şimali Azərbaycanda həyata keçirdiyi aqrar islahatların müstəmləkə xarakter daşıdığı sübuta yetirilmişdir;
– Çarizmin aqrar siyasətinin əsasının Şimali Azərbaycanın təbii sərvətlərinin vəhşicəsinə istismar edilməsi bir daha sübut edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** XIX-XX əsrin əvvəllərində Rusiya imperiyasının Şimali Azərbaycan üzrə aqrar qanunvericiliyinin tədqiqi çarizmin müstəmləkə aqrar siyasətinin məzmununu, mahiyyətini və onun bu diyardakı maraqlarını üzə çıxardı. Burada aparılmış ümumiləşdirmələrdən, çıxarılmış elmi nəticələrdən müxtəlif səpkili ümumiləşdirici əsərlərin, elmi-kütləvi və elmi-populyar nəşrlərin, "Azərbaycanın tarixi" üzrə ümumtəhsil, orta ixtisas və ali məktəblər üçün dərsliklərin hazırlanmasında, mühazirə kursları, xüsusi kurs və xüsusi seminarların keçirilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsində yerinə yetirilmiş, həmin şöbədə iki dəfə müzakirə olunaraq müdafiəyə

təqdim olunmuşdur. Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı elmi məqalələrində, həmçinin respublika, eləcə də beynəlxalq elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiaya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi (**ədəbiyyat siyahısı istisna olunmaqla) 265093 işarədir. Giriş – 24264 işarədən, I fəsil – 68663 işarədən, II fəsil – 72348 işarədən, III fəsil – 84113 işarədən və nəticə 15705 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində dissertasiyanın aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə dərəcəsi şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları, mənbə bazası, elmi yeniliyi və təcrübi əhəmiyyəti sistemli şəkildə təhlil edilmiş, aprobasiyası və quruluşu göstərilmişdir.

Dissertasiyanın **"XIX əsrin birinci yarısında çar Rusiyasının Şimali Azərbaycanda aqrar qanunvericilik sahəsində ilk təşəbbüsləri"** adlanan ilk fəsli üç yarımfəsildən ibarətdir. **"İşğal dövründə aqrar münasibətlərin hüquqi cəhətdən nizamlanması cəhdləri"** adlı birinci yarımfəsildə Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması prosesinin gedişində burada tətbiq olunan vergi və mükəlləfiyyətlərin xüsusiyyətləri tədqiq olunur.

Artıq 1802-ci ildən etibarən işğal edilmiş ərazilərin əhalisindən vergilərin topanılmasına qərar verilmişdi. "Sursati vergisi" adlanan bu verginin 3 il müddətinə toplanılması nəzərdə tutulurdu. Borçalıda yaşayan əhalidən 1352, Qazaxdan 9000, Şəmşəddildən 3000, Şörəyeldən 2000, Pəmbəkdən 1500 kod (1 kod 7 pud 10 funta bərabərdir) həcmində sursati (buğda və arpa məhsullarından) vergisinin yığılması nəzərdə tutulmuşdu.[52]

---

[52] Акты, собранные Кавказской археографической комиссией (bundan sonra

1818-ci ilin martın 31-də Yermolov tərəfindən imzalanmış “Qazax, Şəmşəddil, Borçalı ağaları və onların yaxınlarının qorunması qaydaları və ağaların hökumət qarşısındakı vəzifələri haqqında Əsasnamə” ağaların malik olduqları bir sıra imtiyazları ləğv etdiyinə görə, ağalar tərəfindən böyük narazılıqla, kütləvi çıxışlarla qarşılanmışdı.[53]

1819-cu ildə Şəki xanı İsmayıl xanın ölümündən sonra general Yermolovun 31 iyul tarixli bəyannaməsində İsmayıl xanın nəslindən xanlığı idarə edəcək varis qalmadığına görə xana çatacaq bütün vergilərin imperiya xəzinəsinə daxil ediləcəyi göstərilirdi.[54] Hökumət tərəfindən tətbiq olunan bu qaydalar Şamaxı və Qarabağ xanlıqları üçün də nəzərdə tutulmuşdu. Bunu imperatorun 1823-cü il 19 aprel tarixli ali fərmanından aydın görmək olur.[55]

Yermolov mülkədar və onun işçisi arasındakı münasibətlərinə aydınlıq gətirmək məqsədilə 1824-cü ildə “Quba əyalətində bəylərlə və kəndlilər arasında qarşılıqlı münasibətlərin nizamlanması haqqında” təlimat imzalamışdı. Bu təlimata görə bəy bütün əkinçilik məhsullarının $^{1}/_{10}$ hissəsini almalı idi. Bəy təlimatda göstərilənlərdən əlavə kəndlilərdən heç nə tələb edə və yaxud vergiləri pulla əvəzləyə bilməzdi.[56]

Bu fəslin **“XIX əsrin 30-cu illərində aqrar münasibətlərin nizamlanması”** adlı II yarımfəslində Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra çarizmin bu bölgədə öz müstəmləkəçilik siyasətini daha geniş surətdə tətbiq etməsindən və aqrar münasibətlərin nizamlanması prosesini öz mənafeyinə və maraqlarına uyğun şəkildə həyata keçirməsindən bəhs olunur.

---

АКАК – К.А.). – Тифлис: Главное Управление Наместника Кавказского, – т. I. – 1866, – с. 195-196.

[53] АКАК. – Тифлис: Главное Управление Наместника Кавказского, – т. VI. – 1874, – часть 1, с. 696-698.

[54] АКАК. – Тифлис: Главное Управление Наместника Кавказского, – т. VI. – 1874, – часть 1, с. 739.

[55] АКАК. – Тифлис: Главное Управление Наместника Кавказского, – т. VI. – 1874, – часть 1, с. 714.

[56] Историческая записка об управлении Кавказом: [в 2 томах] / – Тифлис: Типография «Гуттенберг», – Том 1. – 1907. – с. 590-591.

Senatorlar P.İ.Kutaysov və Y.İ.Meçnikov baş komandan qraf İ.F.Paskeviçlə birlikdə hazırlayıb çar I Nikolaya təqdim etdikləri layihədə Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda çarizmin sosial dayağı məsələsini ön plana çəkmiş və ali müsəlman silkinə qəti düşmən və ayrı-seçkilik mövqeyindən yanaşaraq, yerli feodalların torpaqlarının, başlıca olaraq tiyul torpaq sahibliyinin ləğv edilməsi hesabına burada etibarlı arxa kimi "rus zadəganlığı"nın yaradılmasının zəruriliyini əsaslandırmağa cəhd göstərmişdilər.[57]

I fəslin **"XIX əsrin 40-cı illərinin aqrar qanunvericiliyi"** adlanan növbəti yarımfəslində isə Şimali Azərbaycan bölgələrində bəylərin və ağaların hüquqlarını məhdudlaşdırmaqla, rus zadəganlarını Rusiyadan bu ərazilərə köçürərək, onlara xüsusi imtiyazların verilməsindən, sahibkar-kəndli münasibətlərinə dair çar hökumətinin imzaladığı bir sıra qanunlardan bəhs olnunur.

1840-cı il aprelin 10-da çar I Nikolay tərəfindən təsdiq edilmiş "Qafqaz diyarının idarə olunması üçün təsisatlar" adlı qanunla komendant idarə üsulu ləğv edilmiş, Cənubi Qafqaz diyarının Tiflis və Şamaxı şəhərlərində quberniya və vilayət vergi komitələri, qəza mərkəzlərində qəza torpaq vergisi komitələri yaradılmışdı.[58]

1841-ci il yanvarın 5-də verilmiş xüsusi fərmanla Cənubi Qafqazda Gürcüstan-İmeretiya və Xəzər dövlət əmlak palataları yaradılırdı.[59]

1841-ci il fevralın 13-də Baş İdarə Şurası Qazax, Şəmşəddil və Borçalının erməni kəndlərinin ağa və məliklərin "idarəsindən" azad edilməsi, həmin məntəqələrin "tatar" (azərbaycanlı – A.K.) kəndlərinin ağalarının idarəsindən azad edilməsi haqqında iki

---

[57] Колниальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в.: [в 2 частях] – Москва-Ленинград: Издательство АН СССР, – Ч. 1. – 1936. – с. 26-29.

[58] Полное Собрание Законов Российской Империи (bundan sonra – ПСЗРИ – K.A.). Собрание 2-ое. Отделение 1-ое: [в 48 томах] / – 1840 г. Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 15. – 1841. – Закон 13 370, – с. 265-267.

[59] ПСЗРИ. Собр. 2-ое. Отд. 1-ое. – 1841 г.: [в 48 томах] / – Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 16. – 1842. – Закон 14 157, с. 21.

mühüm qərar qəbul etmişdi.[60]

Çar I Nikolay Cənubi Qafqazdakı Baş İdarənin əvəzinə 1844-cü ildə Qafqaz canişinliyini təsis etdi.[61] 1846-cı il dekabrın 6-da 12 maddədən ibarət olan fərman layihəsi çar tərəfindən təsdiq olunmuşdu. Bu fərmana əsasən sahiblərinə irsi mülkiyyət hüququnda verilmiş torpaq sahələri bütün ləvazimatı və təsərrüfat yerləri ilə birlikdə sahibkarın tam mülkiyyəti elan olunurdu. [62]

1846-cı il 6 dekabr fərmanının əsas prinsipləri 1847-ci il aprelin 20-də və dekabrın 28-də verilmiş "Kəndli əsasnamə"lərində inkişaf etdirilmişdi. Əsasnamələrin birincisi Şamaxı, Şuşa, Lənkəran, Bakı və Quba qəzalarının xan və bəylərinə, ikincisi isə Borçalı, Qazax və Şəmşəddil distansiyaları ağaları və Yelizavetpol xan və bəy ailələrinə şamil edilirdi.[63]

Dissertasiyanın üç yarımfəsildən ibarət olan II fəsli **"XIX əsrin ikinci yarısında çar Rusiyasının Şimali Azərbaycanda aqrar qanunvericiliyi"** adlanır. Bu fəslin **"XIX əsrin 50-60-cı illərinin aqrar qanunvericiliyi"** adlı I yarımfəslində çar hökumətinin Şimali Azərbaycanda tətbiq etdiyi aqrar qanunvericiliyinə etdiyi dəyişikliklərdən, yeni qanunların verilməsindən, vergi və mükəlləfiyyətlərin ölçülərindən bəhs olunur və sahibkar-kəndli münasibətlərinə dair tətbiq edilən yeni qaydalardan danışılır.

"Şamaxı quberniyası əhalisinə yeni vergi okladının qoyulması haqqında" təkliflər 1851-ci il noyabrın 2-də təsdiq edilmişdi. Burada ipəyin satılması zamanı alınan verginin ləğv edilməsi, 1836-cı ildə qoyulmuş və artıq yerli ticarət və sənətkarlığın inkişafına əngəl törədən yığım növlərinin aradan qaldırılması nəzərdə tutulurdu.[64]

---

[60] Гасанов, И.М. Частновладельческие крестьяне в Азербайджане в первой половине века / И.М.Гасанов. – Баку: Изд. АН Азербайджанской ССР, – 1957. – с. 147.

[61] Зиссерман, А.Л. Отрывки из моих воспоминаний // Русский вестник, – 1876, – Т. 126. № 12, – с. 480.

[62] Azərbaycan tarixi üzrə qaynaqlar. – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, – 1989, – s. 310-313.

[63] Гасанов, И.М. Частновладельческие крестьяне в Азербайджане в первой половине века / И.М.Гасанов. – Баку: Изд. АН Азербайджанской ССР, – 1957, – с. 217.

[64] ПСЗРИ. Собр. 2-ое. Отд. 2-ое. 1851 г.: [в 48 томах] / – Санкт-Петербург:

1853-cü ilin noyabrın 18-də "Cənubi Qafqaz diyarında torpaq vergilərinin təsis edilməsi üçün bir sıra tədbirlərin görülməsi haqqında" sərəncam verilmişdi.[65]

1847-ci il 20 aprel Əsasnaməsində 1852-ci ildə bəzi dəyişikliklər edildi: sahibkar torpaqlarında yaşayan kəndlilərin ödəyəcəyi vergi bütün məhsulun ½ hissəsinə qədər artırılırdı (əvvəl bu rəqəm $^1/_5$ hissəni təşkil edirdi), kəndlilərin hər iş gününün dəyəri 40 qəpiyə qaldırılırdı və s.[66]

1853-cü ildə kəndlilərin özbaşına halda bir kənddən başqa bir kəndə getməsi hallarının qadağan edilməsi canişin tərəfindən təsdiq olunmuş və bu işə nəzarət etmək qəza rəislərinə tapşırılmışdı.[67]

1860-cı il oktyabrın 6-da "Cənubi Qafqaz diyarının bəy, məlik, ağa və mülkədar torpaqlarında sakin olan kəndlilərə öz torpaq sahələrini satın alma hüququnu verən" qanun verilmişdi.[68]

1861-ci ildə Cənubi Qafqaz Mərkəzi İslahat Komitəsi təşkil edilmişdi və iyunun 29-da "Cənubi Qafqaz diyarının mərzləşdirilməsi haqqında Əsasnamə" təsdiq edilmişdi.[69]

1865-ci il iyunun 29-da Tiflis quberniyası, 1866-cı il sentyabrın 28-də Bakı quberniyası, 1867-ci il dekabrın 6-da İrəvan quberniyası, 1867-ci il iyulun 31-də Zaqatala dairəsi üçün verilmiş "Kənd cəmiyyətlərinin təsis edilməsi, onların ictimai idarəsi, dövlət və

---

Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 26. – 1852. – Закон 25 709, – с. 84-90.

65 ПСЗРИ. Собр. 2-ое. Отд. 1-ое. 1853 г.: [в 48 томах] / – Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 28. – 1854. – Закон 27 704, – с. 560.

66 Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в.: [в 2 частях] – М.-Л.: Издательство АН СССР, – Ч. 2. – 1937, – с. 174-178.

67 Политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в.: [в 2 частях] – М.-Л.: Издательство АН СССР, – Ч. 2. – 1937, – с. 170.

68 ПСЗРИ. Собр. 2-ое. Отд. 2-ое. 1860 г.: [в 48 томах] / – Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 35, – 1862. – Закон 36 206, – с. 164-165.

69 ПСЗРИ. Собр. 2-ое. Отд. 1-ое. 1861 г.: [в 48 томах] / – Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 36. – 1863. – Закон 37 186, – с. 1017-1052.

ictimai mükəlləfiyyətləri haqqında əsasnamə"lər dövlət kəndlilərinin tabeçiliyini daha da möhkəmləndirməli, onları polis-mütləqiyyət dövlətindən hərtərəfli surətdə asılı vəziyyətdə saxlamalı idi.[70]

İkinci fəslin **"1870-ci il Kəndli əsasnaməsi"** adlı növbəti yarımfəslində 1870-ci il 14 may Əsanaməsinin tətbiq olunmasını şərtləndirən amillərdən, bəy komissiyalarının fəaliyyətlərindən danışılır, bu Əsasnaməyə müvafiq olaraq sahibkar-kəndli münasibətlərinin nizamlanması problemi araşdırılır.

1865-ci il oktyabrın 25-də Qazax, Şəmşəddil, Ahalsıx, Sarıtala sahələrində,Yelisavetpol və İrəvan quberniyalarında bəy komissiyaları işə başlamışdır. Tiflis bəy komissiyası 340 nəslin hüquqlarını nəzərdən keçirərək, onlardan 184 nəsli, İrəvan komissiyası tərəfindən isə 586 nəsildən 282-si "ali silkə mənsub" hesab edilmişdi. 1869-cu ildə Şuşa bəy komissiyası, 1870-ci ildə isə Bakı bəy komissiyası öz işlərinə başlamışdılar.[71]

1870-ci il mayın 14-də "Cənubi Qafqaz quberniyaları: Yelisavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyası ali müsəlman silkindən olan şəxslərin və habelə xəmsə məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında əsasnamə" adlı qanun layihəsi imperator tərəfindən təsdiq olunmuşdu.[72]

---

[70] ПСЗРИ. Собр. 2-ое. Отд. 1-ое. 1865 г.: [в 48 томах] / – Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 40. – 1867. – Закон 42 268, – с. 705-716; ПСЗРИ. Собр. 2-ое. Отд. 2-ое. 1866 г.: [в 48 томах] / – Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 41. – 1868. – Закон 43 678, – с. 57-68; ПСЗРИ. Собр. 2-ое. Отд. 2-ое. 1867 г.: [в 48 томах] / – Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 42. – 1871. – Закон 45 247, – с. 360; Gülmalıyev, M.M. XVIII əsrin son rübü – XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-siyasi strukturu / M.M.Gülmalıyev. – Bakı: Elm, – 1989, – s. 189.

[71] Николаи, А.П. Отчет по Главному управлению наместника Кавказского за первое 10-летие управления Кавказским и Закавказским краем князем Михаилом Николаевичем 6 декабря 1862 г. – 6 декабря 1872 г. / А.П.Николаи. – Тифлис: Типография главного управления наместника Кавказского, – 1873, – с. 3-4.

[72] ПСЗРИ. Собр. 2-ое. Отд. 1-ое. 1870 г.: [в 48 томах] / – Санкт-Петербург: Типография второго отделения собственной Е.И.В. канцелярии, – Т. 45. – 1874. – Закон 48 357, – с. 638-642.

14 may "Əsasnamə"si 1870-ci il noyabrın 8-dən etibarən qüvvəyə minirdi. Bununla əlaqədar olaraq tezliklə kəndli işləri üzrə quberniya divanxanaları açılmış, münsif vəzifələri təsis edilmiş, qəzalarda başda münsiflər olmaqla barışıq şöbələri yaradılmışdı.[73]

1870-ci il islahatı mülkədar torpaqlarında "könüllülük" prinsipi əsasında yaşayan kəndlilərə şamil edilməmişdi. Yelizavetpol quberniyasının 200 kəndində bu cür kəndlilərin sayı 65 min nəfərə çatırdı. İslahat onlara yalnız 1876-cı il fevralın 21-dən şamil edilmişdi.[74]

İkinci fəslin **"XIX əsrin 80-90-cı illərinin aqrar qanunvericiliyi"** adlı sonuncu yarımfəslində dövlət torpaqlarının mərzlənməsi qaydalarında edilən dəyişikliklər və bu dəyişikliklərdən meydana çıxan sahibkar-kəndli münasibətlərinin səciyyəvi xüsusiyyətləri və s.

Hökumət 1889-cu ilin aprelin 3-də "Cənubi Qafqaz diyarında mərzləmə idarələrində işçi yerlərinin və yerlilərdən mərzləməyə cəlb olunanların sayının artırılması haqqında" qanun verməklə mərzləməni sürətləndirməyə çalışmışdı.[75]

1880-ci ildə "Cənubi Qafqazda su üzərində hüquq və sudan istifadə qaydaları haqqında" layihə hazırlanmış[76] və 1890-cı il dekabrın 3-də "Cənubi Qafqaz diyarında su üzərində hüquq və torpaqların suvarılması haqqında layihə" çar tərəfindən təsdiq olunub qanun qüvvəsini almışdı.[77]

1897-ci il mayın 26-da Cənubi Qafqazda torpaqların mərzlənməsinin sürətləndirilməsi tədbirlərindən bəhs olunan yeni bir qanun elan edildi.[78] 1897-ci il 6 noyabr tarixli çar fərmanına əsasən

---

[73] Авалиани, С.Л. Крестьянский вопрос в Закавказье: [в 4-х частях] / С.Л.Авалиани. – Одесса: Типография техник, – Ч. 3. – 1914, – с. 182.

[74] Azərbaycan tarixi: [7 cilddə]. – Bakı: Elm, – IV cild (XIX əsr), – 2000, – s. 186.

[75] ПСЗРИ. Собр. 3-е. 1889 г. Санкт-Петербург: Гос. типография, – Т. 9, – 1891. – Закон 5 901, – с. 128-129.

[76] Герсеванов, М. Очерк положения ирригации в Закавказье в 1882 году / М.Герсеванов. – Тифлис: Типография А.А. Михельсона, – 1882, – с. 9.

[77] ПСЗРИ. Собр. 3-е. Отд. 1-ое. 1890 г. Санкт-Петербург: Гос. типография, – Т. 10. – 1893. – Закон 7 255, – с. 761-769.

[78] ПСЗРИ. Собр. 3-е. Отд. 1-ое. 1897 г. Санкт-Петербург: Гос. типография, – Т. 17. – 1900. – Закон 14 150, – с. 315-319.

Cənubi Qafqazda torpaq sahələrinin torpaq sahiblərinin mülkləri kimi möhkəmləndirmək məqsədilə onlara şəhadətnamələrin verilməsi təsdiqlənir və bu cür şəhadətnamələrin verilməsi məhkəmələrə həvalə olunurdu.[79]

1898-ci il mayın 17-də çar hökuməti kəndli torpaqlarının qiymətləndirilməsini qanuniləşdirən xüsusi qaydalar tətbiq etmişdi.[80]

Dissertasiyanın **"XX əsrin əvvəllərində çar Rusiyasının Şimali Azərbaycanda həyata keçirdiyi aqrar islahatlar"** adlı üçüncü fəsli də üç yarımfəsildən ibarətdir. **"1900-1904-cü illərin aqrar qanunları"** adlı ilk yarımfəsildə kəndlilərin torpaqla təmin olunmasında, torpaq vergisinin toplanılmasında və suvarma işinin təşkil olunmasında tətbiq olunan yeni qaydalardan bəhs olunurdu.

"Cənubi Qafqaz diyarı üzrə 1901-1903-cü illər torpaq vergilərinin toplanması və smetası haqqında" qanuna görə Şimali Azərbaycanda torpaq vergilərinin toplanılması işi 3 illiyə nəzərdə tutulurdu və onun smetası hesablanırdı.[81]

Bu qanun əsasən dövlət kəndlilərinin daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyətini, bütün başqa torpaqlar üçün torpaq vergisini, həmişəlik ictimai-zemski vergisini müəyyən etmişdi. Töycü vergisinə torpaq vergisindən əlavə, dövlət kəndlilərinin xalis gəlirlərinin 10-12%-i də qatılmış olmuşdu.[82]

1900-1904-cü illərdə verilmiş çoxsaylı qanunlar və qanun qüvvəli digər aktların başlıca məqsədi isə bir idi - çarizmin hələ də əsas gəlir mənbəyi saydığı torpaq üzərində mülkiyyət hüququnu dövlət xəzinəsinin əlində saxlamaq və hər vasitə ilə xəzinə gəlirlərini mümkün qədər artırmaq.

Üçüncü fəslin **"Müvəqqəti mükəlləfiyyətlərin və asılılıq**

---

[79] Отношение юрисконсульта по судебным и межевым делам на Кавказе от 10 декабря 1897 года, №1560 // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond №54, siyahı №1, iş №73, vərəq – 2.

[80] Исмаилов, М.А. Государственные крестьяне Азербайджана в конце XIX в. // – Баку: Труды Института Истории АН Азербайджанской ССР, – 1957. – Т. 11, – с. 129.

[81] ПСЗРИ. Собр. 3-е. 1900 г. Санкт-Петербург: Гос. типография, – Т. 20. – 1902. – Закон 18 856, – с. 782-784.

[82] Материалы для изучения хлопководства. Санкт-Петербург: 1912, с. 115.

**münasibətlərinin ləğv edilməsi haqqında aqrar qanunların hazırlanması"** adlı II yarımfəsildə Şimali Azərbaycanda sahibkar kəndlilərinin mülkədarlardan asılılıq münasibətlərinin və müvəqqəti mükəlləfiyyətlərin ləğv edilməsi istiqamətində hazırlanan müxtəlif layihələrdən danışılır.

1904-cü ildə hazırlanmış layihəyə görə, Cənubi Qafqaz quberniyalarında mülkədar torpaqlarında yaşayan kəndlilər "dövlətin maliyyə yardımı" ilə məcburi şəkildə pay torpaq sahələrini satın almaqla xüsusi mülkiyyət sahibləri zümrəsinə daxil edilirdilər.[83]

Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov 1905-ci ilin noyabrın 22-də "Qafqazda kəndli məsələsinin nizamlanması haqqında" adlı qanun layihəsini Nazirlər Şurasına təqdim etdi.[84]

1909-cu ilin əvvəlində – Stolıpin aqrar siyasətinin həyata keçirilməsinin qızğın dövründə Qafqaz canişini tərəfindən Cənubi Qafqaz quberniyaları üçün tərtib edilmiş qanun layihəsi Nazirlər Şurasında bir neçə dəfə müzakirə olunduqdan sonra layihə 1911-ci il martın 17-də bəyənildi və 1911-ci ilin sentyabrın 24-də III Dövlət Dumasına təqdim edildi.

Nəhayət, layihə 1912-ci il dekabrın 20-də qanuni qüvvəsini aldı. Bu qanun Cənubi Qafqazın Bakı, Yelisavetpol, İrəvan quberniyalarını və habelə Tiflis quberniyasının bir hissəsini əhatə edirdi. Qanun Dağıstan və Zaqatala dairəsinə şamil edilmədi.[85]

Kəndlilərin müvəqqəti mükəlləfiyyətliliyinin və asılılıq münasibətlərinin ləğv edilməsi haqqında qanunların hazırlanması çarizmin aqrar qanunvericiliyi sahəsində yenilik kimi qiymətləndirilə bilər.

**"Müvəqqəti mükəlləfiyyətlərin və asılılıq münasibətlərinin ləğv edilməsi haqqında aqrar qanunlar və onların nəticələri"** adlı sonuncu yarımfəsildə mülkədar-kəndli münasibətlərinin və torpaq

---

[83] Talıbzadə, İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatı / İ.A.Talıbzadə. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, – 1965, – s. 26.

[84] Всеподданнейшая записка по управлению Кавказским краем генерал-адъютанта графа Воронцова-Дашкова. – Тифлис: Гос. типография, – 1907. – – с. 41.

[85] Авалиани, С.Л. Крестьянский вопрос в Закавказье: [в 4-х частях] / С.Л.Авалиани. – Тифлис: Издание Тифлисского Государственного Университета, – Часть 4. – 1920, – с. 117-118.

alqı-satqı əməliyyatlarının tənzimlənməsi istiqamətində tətbiq olunan aqrar qanunlardan danışılır.

1912-ci il 20 dekabr qanununda mülkədar torpaqlarında yaşayan, pay torpaqlarına malik olan müvəqqəti-mükəlləfiyyətli kəndlilərin bu torpaqları məcburi şəkildə satın almaları haqqında qaydaların müəyyən olunması göstərilirdi. Tiflis, Kutaisi, İrəvan, Yelisavetpol və Bakı quberniyaları mülkədarlarına ödənişlər 1913-cü ilin yanvarın 1-dən satınalma ödənişinə keçirilirdi və bu qaydalara əsasən torpaqlar kəndlilərin xüsusi mülkiyyətinə keçirdi.[86] Beləliklə, 1912-1913-cü illər qanunları da aqrar məsələni axıradək həll edə bilmədi.

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqatdan irəli gələn əsas müddəalar ümumiləşdirilmiş, elmi araşdırmalara yekun vurulmuş və əldə edilmiş mühüm nəticələr qeyd edilmişdir.

Aparılmış tədqiqatlara bütün dissertasiya boyu gətirilmiş ən müxtəlif materiallara, xeyli hissəsi elmi dövriyyəyə yeni daxil olunan qaynaq bilgilərinə əsaslanaraq iddia etmək olar ki, araşdırmaq üçün seçilmiş bütün tarixi dövr ərzində – XIX-XX əsrin əvvəllərində romanovlar Rusiyasının Şimali Azərbaycanda yürütdüyü aqrar siyasət, bütövlükdə çarizmin bu dövr üzrə qanunvericiliyi son dərəcə qeyri-sabit, qeyri-ardıcıl və ziddiyyətli xarakter daşımış, ilk növbədə Rusiyanın imperiyaçı-müstəmləkəçi maraqları ilə müəyyənləşmişdi.

Bu araşdırmalar da əyani şəkildə göstərir ki, Rusiyanın Cənubi Qafqazda yürütdüyü müstəmləkəçilik işğal siyasətinin başlıca cəhətlərindən biri də imperiyanın sərhədlərini genişləndirməkdən, bu diyarı imperiyanın qazanc mənbəyinə çevirməkdən ibarət idi.

Aparılan tədqiqatlar nəticəsində belə bir ümumi nəticəyə gəlmək mümkündür ki, XIX-XX əsrin əvvəllərindəki müstəmləkə əsarəti dövründə çarizmin Şimali Azərbaycan üzrə yürütdüyü aqrar siyasət nəticəsində kənd təsərrüfatının bir sıra sahələrinin nizamlanması sahəsi üzrə formal hüququ baza hazırlansa da, qanunlar çox vaxt kağız üzərində qalmış, aqrar qanunlar praktikadakı vəziyyəti kardinal şəkildə dəyişə bilməmiş, çarizmin buradakı aqrar qanunvericiliyə qeyri-sabit, qeyri-ardıcıl xarakter daşımış, ilk növbədə çarizmin

---

[86] ПСЗРИ. Собр. 3-е. 1912 г. Отд. I-ое. Петроград: Гос. типография, – Т. 32. – 1915. – Закон 38 539, – с. 1687-1692.

müstəmləkəçi mənafelərinin təmininə xidmət göstərmiş, yerli aqrar münasibətlərdə köklü dəyişikliklər yarada bilməmişdir.

Çarizmin Şimali Azərbaycandakı təxminən bir əsrlik azadlığı dövründə burada yürütdüyü aqrar siyasətin hüquqi bazasını təmin etməli olan aqrar qanunvericiliyin başlıca məqsədi yerli aqrar münasibətləri çarizmin məqsədlərinə müvafiq olan hüquqi norma və aktlara tabe edərək onları yeni müstəmləkəçilərin xidmətinə qoymaq idi. Bu aqrar qanunlar formal olaraq burada aqrar hüquqşünaslıq bazasının yaradılması təəssüratı xatırlatsa da praktikada yerli, əsrlərdən bəri formalaşmış aqrar adət və ənənələr öz başlıca mövqelərini qoruyub saxlayaraq yerli aqrar həyatın başlıca məhvəri rolunu oynamaqda davam etmişdi.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. XIX əsrin ikinci yarısında çarizmin Şimali Azərbaycanda mərzləmə tədbirlərinə dair // – Bakı: Tarix və onun problemləri. – Bakı: – 2013. №3, – s. 43-47.

2. Şimali Azərbaycanda XIX əsrin 50-60-cı illərində aqrar qanunvericiliyi haqqında // – Bakı: Tarix və onun problemləri. – Bakı: – 2014. №1, – s. 71-77.

3. 1870-ci il 14 may islahatının müstəmləkə mahiyyəti haqqında // – Bakı: Pedaqoji Universitet Xəbərləri, – 2014. №3, – s. 117-120.

4. Şimali Azərbaycan distansiyalarında rus çarizminin aqrar tədbirlərinə dair (1801-1819-cu illər) // – Bakı: Tarix və onun problemləri, – 2015. №1, – s. 84-90.

5. Çarizmin Şimali Azərbaycanda “müsəlman zadəganlığı” yaratmaq cəhdləri haqqında // – Bakı: Tarix və onun problemləri, Bakı: 2016, №1, s. 77-81.

6. Rus işğalı dövründə Quba əyalətində aqrar münasibətlərin hüquqi cəhətdən nizamlanması cəhdləri haqqında // – Bakı: Pedaqoji Universitet Xəbərləri, – 2015. №2, – s. 136-139.

7. Разработка закона о водопользовании в ирригации земель в Северном Азербайджане и его колониальная сущность // – Тбилиси: – Кавказ и Мир: Международный научный журнал, –

И Образование В Современном Мире Материалы международной научно-практической конференции. – 2023. s. 418-424

12. XIX əsrin əvvəllərində Çar Rusiyasının Şimali Azərbaycanda aqrar münasibətləri nizamlaması cəhdləri // Konfrans materialı International Topkapı Congress-II, İstanbul – 2023. // ISBN:978-625-8254-32-7 . s. 262-269

13. Çar Rusiyasının şimali Azərbaycanda XIX əsrin sonları XX əsrin əvvəllərində həyata keçirdiyi aqrar islahatlar və onların nəticələri. Kamil Mirnağı oğlu Adgözəlov, Mürvət Cavid oğlu Əliyev. // REGİONLARDA ALİ TƏHSİL: REALLIQLAR VƏ PERSPEKTİVLƏR – III Beynəlxalq Elmi Konfransının Materilalları s. 124-130



Dissertasiyanın müdafiəsi 12 İyun 2025-ci il tarixində saat 10⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı: – 1073, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.05.2025
Kağızın formatı: A 5
Həcmi: 42864
Tiraj: 100